

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti**

Sayı: 175 (21.076)

13 sentyabr 2014-cü il, şənbə

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasına rəsmi səfərə gələn Malayziyanın Baş naziri Mohammad Najib Tun Abdul Razakın sentyabrın 12-də rəsmi qarşılanma mərasimi olub.

* * *

Sentyabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Malayziyanın Baş naziri Mohammad Najib Tun Abdul Razakın təkbətək görüşü olub. Təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Malayziyanın Baş naziri Mohammad Najib Tun Abdul Razakın nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olub.

* * *

Sentyabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Malayziyanın Baş naziri Mohammad Najib Tun Abdul Razakın nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü başa çatdıqdan sonra Azərbaycan-Malayziya sənədlərinin imzalanması mərasimi keçirilib.

* * *

Sentyabrın 12-də sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Malayziyanın Baş naziri Mohammad Najib Tun Abdul Razak mətbuata birgə bəyanatlarla çıxış ediblər.



## Miqrasiya sahəsində maarifləndirmə tədbiri keçirilib



*Dünən Babək rayonunun Cəhri kəndində Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin əməkdaşlarının iştirakı ilə maarifləndirici tədbir keçirilib. Yığıncağı xidmətin rəis müavini Elnur Məmmədov açaraq miqrasiya xidməti sahəsində muxtar respublikada görülən işlərdən danışıb, bu cür maarifləndirici tədbirlərin əhəmiyyətindən bəhs edib.*

Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin baş inspektoru Rahib Kərimov "Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında olduğu yer üzrə qeydiyyatı" mövzusunda çıxış edib. Bildirilib ki, Azərbaycan Respublikasında 3 gündən artıq müvəqqəti olan əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər olduğu yer üzrə qeydiyyata alınmalıdırlar. Bunun üçün əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin qaldığı yerin (mehmanxana, xəstəxana, sanatoriya, istirahət yeri, turist bazası və sair) müdiriyyəti və ya mənzilin, digər yaşayış sahəsinin sahibi həmin şəxsin ölkəyə gəldiyi vaxtdan 3 gün ərzində həmin şəxsin olduğu yer üzrə qeydiyyata alınması haqqında ərizə-anketi və onun pasportunun surətini müvafiq icra hakimiyyəti orqanına elektron poçt vasitəsilə və ya şəxsən təqdim etməlidir. Ərizə daxil olduqdan sonra Dövlət Miqrasiya Xidməti dərhal əcnəbi və ya vətəndaşlığı olmayan şəxs barədə məlumatları Vahid Miqrasiya Məlumat Sisteminə daxil etməklə onu olduğu yer üzrə qeydiyyata alır və bu barədə 1 iş günü ərzində müraciət edən şəxsə məlumat verir.

Qeyd olunub ki, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin olduğu yer üzrə qeydiyyata alınması üçün dövlət rüsumu ödənilmir. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər olduğu yerdən getdikdə qəbul edən tərəf və ya şəxs özü bu barədə müvafiq icra hakimiyyəti orqanına məlumat verir və bu məlumat əsasında onlar olduğu yer üzrə qeydiyyatdan çıxarılırlar. Qeydiyyat müddəti başa çatdıqda əcnəbilər və vətəndaşlığı olmayan şəxslər qeydiyyatdan çıxarılmış hesab edilirlər. Əcnəbi və ya vətəndaşlığı olmayan şəxs olduğu yeri dəyişdikdə, o, qanunla müəyyən edilmiş qaydada yeni olduğu yer üzrə qeydiyyata alınmalıdır.

Sonra Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin baş inspektoru Zakir Məmmədovun "Azərbaycan Respublikasında əmək miqrasiyası və onun hüquqi tənzimlənməsi" və xidmətin inspektoru Nurlan Tağıyevin "Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazənin verilməsi" mövzularında çıxışları olub.

Tədbirə Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin rəis müavini Elnur Məmmədov yekun vurub.

*Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsindən aldığımız məlumata görə, banklar tərəfindən təklif edilən xidmətlərin keyfiyyətinin ilbəil artması xidmət olunan müştərilərin sayının artmasına gətirib çıxarmışdır.*

## Bank hesablarının sayı artıb

Belə ki, 2014-cü ilin 1 sentyabr tarixinə 2229 hüquqi, 31220 fiziki şəxs olmaqla, 33449 müştəriyə xidmət göstərilmişdir. O cümlədən bunlardan 5717 nəfəri fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olanlardır. Ötən ilin müvafiq dövrü ilə müqayisədə xidmət olunan bank hesablarında 10385 ədəd artım olmuşdur. Xidmət olunan hesabların 30500-ü aktiv hesab olmuşdur ki, onların 1310-u hüquqi, 29190-ı isə fiziki şəxslərdir.

## Dəmiryol nəqliyyatı payız-qış mövsümünə hazırdır

Naxçıvan Muxtar Respublikasında sərnişin və yük daşınmalarının həyata keçirilməsində dəmiryol nəqliyyatının öz rolu var. Xüsusilə digər nəqliyyat növlərindən fərqli olaraq, müxtəlif növ daşımaların həyata keçirilməsində dəmiryol nəqliyyatı faydalı iş əmsalının yüksək olması ilə seçilir. Buna görə də muxtar respublikada bu nəqliyyat növünün maddi-texniki bazasının müasir tələblər səviyyəsində qurulması, bu sahədəki mövcud potensialdan düzgün istifadə edilməsi daim diqqət mərkəzində saxlanılır. Payız-qış mövsümünə hazırlıq tədbirlərinin vaxtında və düzgün həyata keçirilməsi dəmiryolçuların qarşıdan gələn mövsümə yaxşı hazırlaşdığından xəbər verir. Belə ki, "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətindən aldığımız məlumata görə, Culfa Lokomotiv Deposunda payız-qış mövsümündə istismar olunacaq 5 ədəd elektrovozun və 5 ədəd manevr-magistral teplovozun hərəkət və dartı hissələri müayinə olunaraq onlara baxış keçirilib, cari və depo təmirləri keyfiyyətlə aparılıb. Cari ilin ötən 8 ayı ərzində 124 ədəd müxtəliftipli vaqon depo və cari təmir edilib. Lokomotivlərin və istilik sistemləri ilə təchiz edilmiş sərnişin vaqonlarının mövsümə hazırlığı ilə əlaqədar tələb olunan ehtiyat hissələri və 10,7 ton sürtgü yağı tədarük edilib. Sərnişinlərin payız-qış mövsümündə rahat gediş-gəlişini təmin etmək məqsədilə 4 ədəd istilik sistemi ilə təchiz olunmuş sərnişin vaqonu mövsümə hazır vəziyyətə gətirilib. Sərnişin vaqonlarının qızdırılması üçün lazımi qədər daş kömür ehtiyatı yaradılıb, əlavə olaraq 40 ton daş kömürün alınıb gətirilməsi üçün sifariş verilib.

Bundan əlavə, xidməti ərazidə qatarların təhlükəsiz hərəkətinin təmin olunması məqsədilə baş və stansiya yollarının vəziyyəti yoxlanılaraq ehtiyac duyulan sahələrdə köhnə şpallar 292 ədəd təzə ağac şpal və 123 ədəd dəmir-beton şpallarla dəyişdirilib, 50 metr yararsız rels yarımyararlı relslə əvəz edilib. Eyni zamanda stansiyalarda 166 ədəd rele, 14 ədəd radioabitə bloku, 125 metr magistral kabelin dəyişdirilməsi təmin olunub.

Məlumatda o da qeyd olunur ki, son illər əsaslı təmir olunmuş və yenidən qurulmuş sərnişin vağzalı və inzibati binalarda 9 ədəd fərdi qazanxana quraşdırılıb. Təmir sexlərində və digər strukturlarda isə 6 ədəd "Kombi" markalı qızdırıcıdan istifadə olunur. İstismar edilən bütün qazanxanalara texniki baxış keçirilərək onlar saz vəziyyətə gətirilib.

Həyata keçirilən tədbirlər payız-qış mövsümündə muxtar respublikada dəmiryol nəqliyyatının vaxtında və təhlükəsiz hərəkətinin təminatına zəmanət verir.

*Muxtar respublikamızda mövcud su ehtiyatlarından səmərəli istifadə edilməsinə, su təminatının yüksəldilməsinə böyük əhəmiyyət verilir. Suya olan tələbatı ödəmədən xalq təsərrüfatı sahələrinin inkişafını və istehsalın iqtisadi səmərəliliyini təmin etmək mümkün deyildir. Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin kollektivinə bu vəzifələri yerinə yetirmək üçün hərtərəfli şərait yaradılıb. Bu şəraitdən səmərəli istifadə etməyə səy göstərən su təsərrüfatı işçiləri 2014-cü ilin ilk 8 ayını uğurlu göstəricilərlə başa vurublar.*

## İçməli və təsərrüfat suyuna olan tələbatın ödənilməsi istiqamətində tədbirlər davam etdirilir

Komitədən aldığımız məlumata görə, bəhs olunan dövrdə muxtar respublikanın torpaq mülkiyyətçilərinin suvarma suyuna olan tələbatının ödənilməsi diqqətdə saxlanılıb. Onlara 148,2 milyon kubmetr suvarma suyu verilib, bunun müqabilində təkrar suvarma da nəzərə alınmaqla, 121745 hektar əkin sahəsi suvarılıb. Hazırda su anbarlarında 76 milyon kubmetr su ehtiyatı vardır.

Bu dövrdə ikinci suvarma mənbəyi olan 86 nasos stansiyasında və 381 subartezian quyusunda əsaslı təmir işləri aparılıb. Təmir zamanı 52 subartezian quyusuna yeni nasos qoyulub, 3 qəzalı subartezian quyusu bərpa olunub, 8 yeni subartezian quyusu, 3 nasos stansiyası balansa götürülüb.

Təmir-bərpa işləri suvarma və içməli su mənbəyi kimi istifadə olunan kəhrizlərdə də aparılıb. Belə ki, təmirinə başlanılan 12 kəhrizdən 6-da işlər tamamlanaraq istifadəyə verilib. Altı kəhrizdə təmir-bərpa işləri davam etdirilir.

Komitədən onu da bildiriblər ki, Azərbaycan Respublikası ilə İslam İnkişaf Bankının birgə maliyyələşdirdiyi "Naxçıvan Muxtar Respublikasında suvarıla bilən ərazilərin modernləşdirilməsi və genişləndirilməsi layihəsi"nə əsasən, 2014-cü ilin ilk 8 ayı ərzində bir sıra tədbirlər həyata keçirilib. Belə ki, həmin layihəyə daxil olan Araz çayı boyunca sahilbərkitmə, Kəngərli rayonunda irriqasiyanın təkmilləşdirilməsi, Vayxır sol sahil irriqasiya sistemlərinin müasirləşdirilməsi layihələrində nəzərdə tutulan işlər davam etdirilib, 6600 metr sahilbərkitmə bəndinin tikintisi, Kəngərli rayonunda 21800 metr qoşa boru xəttinin, 8520 metr təzyiqli boru xəttinin çəkilişi, diametri 500 millimetr olan boru ilə 1200 metr paylayıcı boru xəttinin çəkilişi aparılıb. Vayxır sol sahil irriqasiya sistemlərinin müasirləşdirilməsi layihəsi üzrə müxtəlif diametrli borularla 2322 metr suvarma xəttinin, 3236 metr drenaj xəttinin çəkilişi aparılıb. Bu tədbirlər davam etdirilir.

**Xəbərlər şöbəsi**

## Bağlar diyarında məhsul bolluğudur

"2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" əhalinin təhlükəsiz və keyfiyyətli ərzaqla təmin olunmasında, daxili tələbatın yerli istehsal hesabına ödənilməsində, idxaldan asılılığın azaldılmasında və sahibkarlıq mühitinin yaxşılaşdırılmasında mühüm rola malikdir. Ötən dövr ərzində bu sahədə qazanılan uğurlar belə deməyə əsas verir. 2014-cü ilin ilk 8 ayı ərzində dövlət proqramından irəli gələn vəzifələrin yerinə yetirilməsi istiqamətində Ordubad rayonunda da xeyli iş görülüb, uğurlu nəticələrə nail olunub.

Ordubad Rayon Statistika İdarəsindən aldığımız məlumata görə, bölgənin torpaq mülkiyyətçiləri ötən ilin payızında və cari ilin yazında 2014-cü ilin məhsulu üçün əkilmiş 2147,9 hektar taxıl sahəsindən 5772 ton məhsul tədarük ediblər. Bunun 1307,7 hektarı buğda, 840,2 hektarı arpa olub. Məhsuldarlıq 26,9 sentner təşkil edib. Hazırda 2015-ci ilin məhsulu üçün sahələrdə şum qaldırılır.

Dənli-paxlalı bitkilərin əkinində də yüksək nəticəyə nail olunub. Belə ki, 282 hektar sahədən 908 ton məhsul toplanılıb.

Ordubadlılar kartofçuluqda zəngin təcrübəyə malikdirlər. Rayonun məhsuldar torpaq sahələri burada yüksəkkeyfiyyətli kartof istehsalına imkan verir. Yaradılan şərait, dövlət tərəfindən verilən kredit və əldə edilmiş məhsuldar toxum sortları torpaq mülkiyyətçilərinin ilbəil qazandıqları uğurların artmasında başlıca səbəblərdir. Cari ildə onlar 573 hektar sahədə kartof əkiblər. Bu günədək 562 hektar sahənin məhsulu tədarük edilib. Torpaq mülkiyyətçiləri 8256 ton məhsula sahib olublar.

Rayonun iqtisadiyyatında əsas yerlərdən birini tərəvəzçilik təşkil edir. Torpaq mülkiyyətçiləri cari ildə 672 hektar sahəni tərəvəz üçün ayırıblar. Bu günədək 637 hektar sahədən 4032 ton məhsul tədarük edilib.

41 hektar sahədə bostan məhsulları yetişdirən torpaq mülkiyyətçilərinin də zəhməti hədər getməyib: 277 ton məhsul yığılıb.

Əsasən meyvəçilik diyarı kimi tanınan rayonda bu il 580 ton meyvə, 25 ton üzüm tədarük edilib.

15 sentyabr Bilik Günüdür

# Təhsil hər bir ölkənin inkişafında mühüm şərtdir







***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2004-cü il 21 avqust tarixli Fərmanı ilə hər il ölkəmizdə sentyabrın 15-i “Bilik Günü” kimi qeyd olunur.***

Gənclərə göstərilən qayğı, onların təhsili üçün yaradılan şərait hər bir ölkənin gələcəyinə xidmət edir. ***“Müstəqil Azərbaycanın gələcəyi gənclərin bu gün aldıqları bilik, təhsil və tərbiyədən asılıdır”***, – deyən xalqımızın ümummilli lideri Heydər Əliyev Azərbaycanın dövlətçilik təməlini qoyarkən onun əsas sütunlarından birinin təhsil olduğunu vurğulamış, bu sahənin inkişafını dövlətin əsas vəzifəsi sırasına çəkmişdir. Ulu öndərin rəhbərliyi ilə ötən əsrin 70-80-ci illərində xalqımızın təhsillənməsi, gənc kadrların formalaşması, təhsil müəssisələrinin fəaliyyətinin genişləndirilməsi istiqamətində taleyüklü tədbirlər görülmüşdür. Azərbaycan müstəqillik qazandıqdan sonra isə təhsil sistemi milli mənafelər əsasında qurulmağa başlanmış, bu sahədə ardıcıl islahatlar həyata keçirilmişdir.

Bu gün ümummilli liderimiz tərəfindən əsası qoyulan təhsil strategiyasını inamla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə milli intellektual potensialın formalaşdırılması, elmin, təhsilin sürətli inkişafı istiqamətində kompleks tədbirlər həyata keçirilməkdədir. ***“Biz maddi dəyərlərimizi, iqtisadi potensialımızı insan kapitalına çevirməliyik. Çünki insanın savadı, biliyi onun gələcək həyatını müəyyən edir, ölkənin hərtərəfli inkişafına xidmət edir”*** konsepsiyasını əsas istiqamət kimi götürən dövlət başçısı tərəfindən Azərbaycanda insan kapitalının formalaşdırılması sahəsində köklü islahatlar aparılır.

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da ulu öndər Heydər Əliyevin ideyalarının uğurla davam etdirilməsi təhsildə yeni və müasir mərhələnin başlanmasına səbəb olmuşdur. Muxtariyyət tarixinin inkişaf və tərəqqi cəhətdən daha məhsuldar dövrü olan son 10 ildə muxtar respublikamızda 56 min 926 şagird yerlik 150-yə yaxın orta məktəb binası tikilmiş və ya əsaslı şəkildə yenidən qurulmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısı sayəsində məktəblərin maddi-texniki bazası möhkəmləndirilmiş, təhsil quruculuğu təkcə rayon mərkəzlərini deyil, muxtar respublikamızın ən ucqar dağ kəndlərini belə əhatə etmişdir.

Hər il olduğu kimi, “Muxtariyyət ili”ndə də quruculuq və abadlıq işlərinin önündə təhsil müəssisələrinin tikintisi dayanır. Naxçıvan şəhərində 9 nömrəli, Şərur rayonunda Püsyan, Dizə, Kürkənd, Axura, Diyadin, Babək rayonunda Nehrəm kənd 2 nömrəli, Qahab, Naxışnərgiz, Ordubad rayonunda Ordubad şəhər 3 nömrəli, Aşağı Əylis, Culfa rayonunda Bənəniyar, Şahbuz rayonunda Şahbuz şəhər 2 nömrəli, Nursu, Kəngərli rayonunda Qarabağlar kənd 1 nömrəli tam orta məktəblərin, eyni zamanda Kəngərli və Sədərək Rayon Təhsil şöbələri üçün inzibati binaların, Kəngərli rayonunda Şahmat Məktəbi üçün binanın tikintisi və ya əsaslı şəkildə yenidən qurulması davam etdirilir. Eyni zamanda Şərur rayonunda Cəlilkənd, Babək rayonunda Qoşadizə, Güznüt, Ordubad rayonunda internat, Culfa rayonunda Şurud, Şahbuz rayonunda Güney Qışlaq və Gömür kənd tam orta məktəblərində isə əsaslı təmir işləri həyata keçirilir.

İnformasiya-kommunikasiya texnologiyalarının ən son nailiyyətlərinin tədrisdə tətbiqi muxtar respublikada həyata keçirilən təhsil islahatlarının əsasını təşkil edir. Müasir informasiya-kommunikasiya texnologiyalarına əsaslanan təhsil infrastrukturunun, o cümlədən elektron tədrisin yaradılması istiqamətində məqsədyönlü tədbirlər görülür. Son illər ümumtəhsil məktəblərində 600-ə yaxın elektron lövhə, hər 12 şagirdə 1 kompüter düşməklə, 3409 kompüter quraşdırılmışdır. Kompüterlərdən 84 faizi internet şəbəkəsinə qoşulmuşdur. Bu tədbirlərin davamı olaraq, elektron təhsilin tətbiqi, təhsil müəssisələrində virtual tədris mühitinin formalaşdırılması, tədrisin əyaniliyinin və səmərəliliyinin artırılması məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2014-cü il iyunun 20-də “Naxçıvan Muxtar Respublikasında təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında” Sərəncam imzalamışdır. Bu sərəncama əsasən, interaktiv tədris yeni inkişaf mərhələsinə yüksəlmişdir.

Ümumtəhsil məktəblərinin dərslik və dərs ləvazimatları ilə təminatı təhsilin inkişafında başlıca amildir. Son doqquz ildə muxtar respublikanın təhsil müəssisələrinə 2 milyondan artıq dərslik, 620 min 117 nüsxə bədii ədəbiyyat, 16 min 720 ədəd xəritə, müxtəlif fənlərə dair 86 min 750 ədəd plakat, şahmatın tədrisi üçün 325, ayrı-ayrı fənlərin tədrisi üçün 2 min 140 ədəd elektron tədris vəsaiti verilmişdir.

Muxtar respublikamızda peşə təhsilinin də yeni inkişaf mexanizmi hazırlanmış, peşə təhsili müəssisələrinin səmərəli fəaliyyəti üçün mühüm tədbirlər görülmüşdür. Bu tədbirlər çərçivəsində Şərur Texniki-Peşə və Sürücülük Məktəbi üçün müasir şərait yaradılmış, yeni tədris korpusu və yataqxana binasının tikintisi başa çatdırılmışdır. Bu da, öz növbəsində, muxtar respublikamızın əmək bazarında kadra olan ehtiyacın ödənilməsində mühüm rol oynayacaqdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə “2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı” təsdiq edilmişdir. Dövlət proqramı valideyn himayəsindən məhrum olmuş uşaqların, eləcə də ümumtəhsil müəssisələrində tədrisə cəlb edilmiş aztəminatlı, sağlamlıq imkanları məhdud uşaqların pulsuz məktəbli geyimləri və ləvazimatları ilə təminatına, bütün kateqoriyadan olan uşaqların təhsil almalarına əlverişli şərait yaratmışdır. Həmçinin məhdud fiziki imkanlıların distant təhsilə cəlbi də təmin olunmuşdur. Bu kateqoriyadan olan 19 uşaq kompüter dəsti, məktəbli geyimi və ləvazimatları ilə təmin olunmuş, Məhdud Fiziki İmkanlılar üçün Regional İnformasiya Mərkəzində Distant Təhsil Mərkəzi yaradılmışdır.

Təhsilə göstərilən dövlət qayğısı ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbuluna da öz müsbət təsirini göstərmiş, bu prosesdə ilbəil artım tempi qeydə alınmışdır. 2013-2014-cü tədris ili üzrə məktəbi yüksək qiymətlərlə bitirən məzunlardan 14-ü “Qızıl”, 13-ü isə ”Gümüş” medala layiq görülmüş, ali və orta ixtisas məktəblərinə qəbul imtahanlarında iştirak etmiş məzunlardan 1725 nəfəri tələbə adını qazanmışdır. Ali məktəblərə qəbul olunan məzunların 347 nəfəri imtahanlarda daha yüksək nəticə göstərərək 500-700 intervalında bal toplamışdır. Hər il olduğu kimi, bu il də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov yüksək bal toplayaraq tələbə adını qazanmış məzunlarla görüşmüş, yeni cəmiyyət quruculuğunda gənclərin üzərinə mühüm vəzifələr düşdüyünü vurğulayaraq demişdir: ***“Yaxşı təhsil almadan intellektual səviyyəni yüksəltmək, kamil mütəxəssis və əsl vətəndaş kimi yetişmək mümkün deyil. Öz üzərinizdə daim işləməli, mütaliə etməlisiniz. İnformasiya texnologiyalarının sirlərinə dərindən bələd olmalı, müasir elmi-texniki yenilikləri öyrənməlisiniz. Bu gün gəncliyin təhsildə əsas missiyası istənilən sahə üzrə mütəxəssis kimi yetişmək, Vətən üçün, xalq üçün faydalı olmaqdır. Çalışmaq lazımdır ki, verilən təhsil yalnız qazanılmış biliklə məhdudlaşmasın. Gənclər öz dünyagörüşlərini inkişaf etdirməli, milli və ümumbəşəri dəyərləri, xalqımıza məxsus adət-ənənələri mənimsəməlidirlər. Müasir həyat insanlardan daha çox bilik və təcrübə tələb edir. Ona görə də siz təhsil almaqla yanaşı, həm də seçdiyiniz sahə üzrə yaxşı mütəxəssis kimi yetişməli, özünüzü cəmiyyət üçün hazırlamalısınız”.***

Vətənpərvər və sağlam düşüncəli gənclərin yetişdirilməsində hərbi təhsilin özünəməxsus yeri vardır. Bu sahədə gənclərin yüksək səviyyədə təhsil alması və gələcəkdə ixtisaslı kadr kimi formalaşması üçün muxtar respublikada hər cür şərait yaradılmışdır. Bunu Heydər Əliyev adına Hərbi Liseyə qəbulun nəticələri də sübut edir. 2014-cü ildə Heydər Əliyev adına Hərbi Liseyə 255 nəfər qəbul olunmuşdur. Liseyi bitirən məzunlar isə ölkəmizin müxtəlif ali hərbi məktəblərində təhsillərini davam etdirirlər.

Muxtar respublikada təhsil müəssisələrinin pedaqoji kadrlarla təminatı da daim diqqət mərkəzində saxlanılır. Hər il təşkil olunan təhsil yarmarkalarında onlarla gənc müəllim ixtisasına uyğun işlə təmin olunur. Təhsil yarmarkaları ucqar kənd məktəblərində pedaqoji kadrlara olan tələbatın ödənilməsi baxımından mühüm əhəmiyyət daşımaqla yanaşı, həm də gənc müəllimlərin işlə təminatına şərait yaradır. Bu il sentyabrın 4-də keçirilən növbəti təhsil yarmarkasında 108 gənc kadra müxtəlif məktəblərdə işləmək üçün göndərişlər verilmişdir.

Təhsil sistemində aparıcı sima olan müəllimlərin əməyi də muxtar respublikamızda hər zaman yüksək qiymətləndirilir. Bu günə qədər 57 müəllim “Azərbaycan Respublikasının əməkdar müəllimi”, 72 nəfər “Naxçıvan Muxtar Respublikasının əməkdar müəllimi” fəxri adlarına layiq görülmüş, 60-a yaxın müəllim isə müxtəlif medallarla təltif olunmuşdur.

*Əldə olunmuş bu uğurlar muxtar respublikamızda təhsilə, təhsil işçilərinə göstərilən yüksək dövlət qayğısı nəticəsində mümkün olmuşdur. Bu isə intellektual gələcəyə doğru atılan addım kimi hər il Bilik Gününün əsl bayram əhval-ruhiyyəsi ilə qeyd olunmasına əsas verir.*

**“Şərq qapısı”**

# “Asan imza” mobil elektron imza xidməti barədə seminar

***Babək Rayon Vergilər Şöbəsində vergi ödəyiciləri ilə keçirilən seminarı giriş sözü ilə şöbənin rəisi Səftər Əliyarov açaraq “asan imza”nın üstünlüyündən danışıb.***

Azərbaycan Respublikası Vergilər Nazirliyinə dəstək qrupunun rəhbəri Sahil Qasımov “Asan imzanın alınması, istifadə qaydası və istifadə sahələri” mövzusunda danışaraq bildirib ki, elektron xidmətlərdə sadə və təhlükəsiz mobil autentifikasiya və mobil elektron imza olan “asan imza”nın kütləvi istifadəsinin stimullaşdırılması məqsədilə Vergilər Nazirliyinin təşəbbüsü ilə Azərbaycanın bütün mobil operatorları tərəfindən “asan imza” mobil elektron imza xidməti üçün qiymətlərin endirilməsi kampaniyasına start verilib.

Kampaniya 16 may 2014-cü il tarixdən etibarən başlayıb. Artıq fiziki və hüquqi şəxslər, eləcə də dövlət qulluqçuları “asan imza” mobil elektron imza xidmətini Azərbaycanın hər üç mobil operatorunun nümayəndəliklərindən vahid qiymətə – 18 manata (ƏDV daxil) əldə edə və 3 il müddətində ondan yararlana bilərlər.

“Asan imza” mobil elektron imza xidmətinin əldə edilməsi ilə bağlı endirimlər fiziki şəxslər üçün 40 faiz, hüquqi şəxslər üçün 90 faiz və dövlət qulluqçuları üçün 80 faizə qədər təşkil edir.

Hüquqi şəxslər və sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərə, eləcə də dövlət qulluqçularına “asan imza” mobil elektron imza üçün sertifikat ödənişsiz əsaslarla təqdim edilir. Bundan əlavə, “asan imza” mobil elektron imza istifadəçisi bir neçə hüquqi şəxsi təmsil etdikdə bütün hüquqi şəxslər üçün bir “asan imza” SİM kartına sahib olmaq kifayət edir.

Qeyd edək ki, “asan imza” mobil elektron imza Azərbaycanda mövcud qanunvericiliyin bütün tələblərinə tam uyğun gələn yeganə mobil elektron imzadır.

Hazırda “asan imza” mobil elektron imza istifadəçiləri üçün “elektron hökumət” portalında ***(www.e-gov.az)***, Vergilər Nazirliyinin elektron xidmətlər portalında ***(www.e-taxes.gov.az)***, hesab.az internet-ödəniş portalında və digər elektron xidmət portallarında çoxsaylı xidmətlər mövcuddur. Vergilər Nazirliyi tərəfindən təqdim olunan fiziki şəxslərin “asan imza” vasitəsilə cəmi 5 dəqiqə ərzində fərdi sahibkar kimi onlayn qeydiyyatı xidməti istifadəçilər arasında xüsusi populyarlıq qazanıb.

Azərbaycan Respublikası Vergilər Nazirliyinə dəstək qrupunda analitik Əfqan Orucov “Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əmək müqaviləsi bildirişlərinin “asan imza” ilə onlayn qeydiyyatı” mövzusunda çıxış edərək qeyd edib ki, “asan imza” vasitəsilə əmək müqaviləsi bildirişlərinin qeydiyyata alınması prosesi davam edir. Vergilər Nazirliyi də əmək müqavilələrinin elektron informasiya sisteminə daxil edilməsində vergi ödəyicilərinə dəstək verir. Əmək Məcəlləsinə edilən dəyişikliklərdən sonra əmək münasibətləri əmək müqaviləsi bağlandığı andan deyil, elektron informasiya sisteminə daxil edilmiş əmək müqaviləsi bildirişinin qeydiyyata alınmasından və bu barədə işəgötürənə elektron qaydada məlumat göndərilməsindən sonra yaranır. Bu səbəbdən də bütün işəgötürənlər əmək müqaviləsinin bağlanılması, ona dəyişiklik edilməsi və ya xitam verilməsi ilə bağlı elektron informasiya sistemində əmək müqaviləsi bildirişini qeydiyyatdan keçirməlidirlər. “Asan imza” vasitəsilə təşkilatın səlahiyyətli nümayəndələri tərəfindən əməkdaşlarla bağlanan əmək müqavilələri haqqında məlumatların daxil edilməsi və sonradan bu məlumatların işçilər tərəfindən əldə edilməsi mümkündür.

Vurğulanıb ki, Vergilər Nazirliyi də əmək müqavilələrinin elektron informasiya sisteminə daxil edilməsində vergi ödəyicilərinə dəstək verir. Vergi ödəyiciləri vergi orqanlarına müraciət edərək əmək müqavilələrinin elektron informasiya sisteminə daxil edilməsində yardım ala bilərlər. Bu xidmət tamamilə ödənişsizdir. Vergi ödəyiciləri bu xidmətləri paytaxtda və regionları əhatə edən vergi ödəyicilərinə xidmət mərkəzlərində ala bilərlər. Əmək müqavilələrinin elektron sistemə tam inteqrasiyası 3 ay ərzində başa çatdırılmalıdır. Beləliklə, bir neçə ay ərzində ölkəmizdə əmək kitabçaları öz aktuallığını tamamilə itirəcək. Qeyd edək ki, informasiya sisteminə nəzarət Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Dövlət Əmək Müfəttişliyi Xidməti tərəfindən həyata keçirilir.

Tədbirdə mövzuya uyğun slayd nümayiş olunub.

**Hafizə ƏLİYEVA**

# Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya dövlət orqanlarında vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyənlər 15 sentyabr 2014-cü il tarixdən 15 oktyabr 2014-cü il tarixədək Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyaya (Naxçıvan şəhəri, Cəlil Məmmədquluzadə küçəsi 23) müraciət edərək müraciət formasını doldurmalıdırlar. Sənədlər şəxsən (həftənin iş günləri saat $9^{00}$-dan $12^{30}$-dək və $14^{00}$-dən $17^{30}$-dək) təqdim edilməlidir.

**Vətəndaşlar aşağıdakı sənədləri təqdim etməlidirlər:**

- şəxsiyyəti təsdiq edən sənəd
- ali təhsil haqqında sənədlər
- əmək kitabçası və ya surəti (olduğu təqdirdə)
- 2 ədəd ağ fonda rəngli fotoşəkil (3 x 4 sm ölçüdə)

Müsabiqə test imtahanı və müsahibədən ibarətdir.

**Əlaqə telefonu: 545-65-71**

| Dövlət orqanı və struktur bölmənin adı | Ştat sayı | Təsnifat | Vəzifənin adı |
|---|---|---|---|
| **1. Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi** | | | |
| Hüquq, kadr və yerli orqanlarla iş şöbəsi. Hüquqşünas | 1 | 6 | baş məsləhətçi |
| Təbii sərvətlərdən istifadənin tənzimlənməsi sektoru | 1 | 6 | məsləhətçi |
| Ətraf mühit və təbii sərvətlərdən istifadəyə dövlət nəzarəti şöbəsi. Ovşünas | 1 | 6 | aparıcı məsləhətçi |
| Ətraf mühit və təbii sərvətlərdən istifadəyə dövlət nəzarəti şöbəsi. Şərur rayonu üzrə | 1 | 7 | baş məsləhətçi |
| Ətraf mühit və təbii sərvətlərdən istifadəyə dövlət nəzarəti şöbəsi. Şərur rayonu üzrə | 1 | 7 | məsləhətçi |
| Ətraf mühit və təbii sərvətlərdən istifadəyə dövlət nəzarəti şöbəsi. Babək rayonu üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| Ətraf mühit və təbii sərvətlərdən istifadəyə dövlət nəzarəti şöbəsi. Babək rayonu üzrə | 1 | 7 | məsləhətçi |
| Ətraf mühit və təbii sərvətlərdən istifadəyə dövlət nəzarəti şöbəsi. Culfa rayonu üzrə | 2 | 7 | məsləhətçi |
| Ətraf mühit və təbii sərvətlərdən istifadəyə dövlət nəzarəti şöbəsi. Sədərək rayonu üzrə | 1 | 7 | məsləhətçi |
| **Cəmi:** | **10** | | |
| **2. Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi** | | | |
| Sosial təminat və əlillərin sosial müdafiəsi şöbəsi | 1 | 6 | aparıcı məsləhətçi |
| Sosial təminat və əlillərin sosial müdafiəsi şöbəsi | 1 | 6 | məsləhətçi |
| Əmək münasibətləri və əməyin mühafizəsi sektoru | 1 | 6 | məsləhətçi |
| **2.1. Dövlət Əmək Müfəttişliyi Xidməti** | | | |
| Əməyin mühafizəsi məsələlərinə nəzarət və istehsalatda baş vermiş bədbəxt hadisələrin təhqiqi sektoru. Baş əmək müfəttişi | 1 | 7 | baş məsləhətçi |
| Əməyin mühafizəsi məsələlərinə nəzarət və istehsalatda baş vermiş bədbəxt hadisələrin təhqiqi sektoru. Əmək müfəttişi | 3 | 7 | məsləhətçi |
| Əməyin sosial hüquq məsələləri üzrə nəzarət sektoru. Baş əmək müfəttişi | 1 | 7 | baş məsləhətçi |
| Əməyin sosial hüquq məsələləri üzrə nəzarət sektoru. Əmək müfəttişi | 1 | 7 | məsləhətçi |
| Operativ nəzarət və informasiya sektoru. Əmək müfəttişi | 1 | 7 | baş məsləhətçi |
| Ümumi işlər və maliyyə-təsərrüfat sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| **2.2. Dövlət Məşğulluq Xidməti** | | | |
| Əmək bazarının təhlili və statistika sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| Əmək birjası sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| Şərur Rayon Məşğulluq Mərkəzi | 1 | 7 | aparıcı məsləhətçi |
| Babək Rayon Məşğulluq Mərkəzi | 1 | 7 | baş məsləhətçi |
| Babək Rayon Məşğulluq Mərkəzi | 1 | 7 | aparıcı məsləhətçi |
| Ordubad Rayon Məşğulluq Mərkəzi | 1 | 7 | baş məsləhətçi |
| Ordubad Rayon Məşğulluq Mərkəzi | 1 | 7 | aparıcı məsləhətçi |
| Culfa Rayon Məşğulluq Mərkəzi | 1 | 7 | baş məsləhətçi |
| Culfa Rayon Məşğulluq Mərkəzi | 1 | 7 | aparıcı məsləhətçi |
| Şahbuz Rayon Məşğulluq Mərkəzi | 1 | 7 | baş məsləhətçi |
| Şahbuz Rayon Məşğulluq Mərkəzi | 1 | 7 | aparıcı məsləhətçi |
| Kəngərli Rayon Məşğulluq Mərkəzi | 1 | 7 | aparıcı məsləhətçi |
| Sədərək Rayon Məşğulluq Mərkəzi | 1 | 7 | məsləhətçi |
| **2.3. Dövlət Sosial Təminat Xidməti** | | | |
| Sosial müavinətlər və sosial yardımların təşkili sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| Sosial xidmətin təşkili və sosial proqramlar sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| Naxçıvan Şəhər Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial müavinətlər və sosial yardımlar sektoru | 1 | 7 | baş məsləhətçi |
| Naxçıvan Şəhər Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Mühasibat uçotu və təsərrüfat sektoru. Mühasib | 2 | 7 | məsləhətçi |
| Şərur Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial xidmətlər sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| Şərur Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Mühasibat uçotu və təsərrüfat sektoru. Mühasib | 1 | 7 | məsləhətçi |
| Babək Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial müavinətlər və sosial yardımlar sektoru | 2 | 7 | məsləhətçi |
| Babək Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial xidmətlər sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| Babək Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Mühasibat uçotu və təsərrüfat sektoru. Mühasib | 2 | 7 | məsləhətçi |
| Culfa Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial müavinətlər və sosial yardımlar sektoru | 1 | 7 | baş məsləhətçi |
| Culfa Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial xidmətlər sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| Culfa Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Mühasibat uçotu və təsərrüfat sektoru. Mühasib | 1 | 7 | məsləhətçi |
| Ordubad Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial müavinətlər və sosial yardımlar sektoru | 1 | 7 | məsləhətçi |
| Ordubad Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial xidmətlər sektoru | 1 | 7 | baş məsləhətçi |
| Ordubad Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial xidmətlər sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| Ordubad Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Mühasibat uçotu və təsərrüfat sektoru. Mühasib | 1 | 7 | məsləhətçi |
| Şahbuz Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial xidmətlər sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| Şahbuz Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial müavinətlər və sosial yardımlar sektoru | 2 | 7 | məsləhətçi |
| Şahbuz Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Mühasibat uçotu və təsərrüfat sektoru. Mühasib | 1 | 7 | məsləhətçi |
| Kəngərli Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial müavinətlər və sosial yardımlar sektoru | 1 | 7 | baş məsləhətçi |
| Kəngərli Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial müavinətlər və sosial yardımlar sektoru | 2 | 7 | məsləhətçi |
| Kəngərli Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial xidmətlər sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| Kəngərli Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Mühasibat uçotu və təsərrüfat sektoru. Mühasib | 1 | 7 | məsləhətçi |
| Sədərək Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi.Sosial müavinətlər, sosial yardımlar və sosial xidmətlər sektoru | 3 | 7 | baş məsləhətçi |
| Sədərək Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi.Sosial müavinətlər, sosial yardımlar və sosial xidmətlər sektoru | 1 | 7 | məsləhətçi |
| Sədərək Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Mühasibat uçotu və təsərrüfat sektoru. Mühasib | 1 | 7 | məsləhətçi |
| **Cəmi:** | **57** | | |
| **3. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi** | | | |
| Ərazi orqanları ilə iş və kadrlar şöbəsi. Mətbuat və ictimaiyyətlə əlaqələr üzrə | 1 | 6 | baş məsləhətçi |
| Şərur Rayon Gənclər və İdman İdarəsi | 1 | 7 | məsləhətçi-mühasib |
| Babək Rayon Gənclər və İdman İdarəsi | 1 | 7 | aparıcı məsləhətçi |
| Ordubad Rayon Gənclər və İdman İdarəsi | 1 | 7 | baş məsləhətçi |
| Ordubad Rayon Gənclər və İdman İdarəsi | 1 | 7 | məsləhətçi-mühasib |
| Kəngərli Rayon Gənclər və İdman İdarəsi | 1 | 7 | baş məsləhətçi |
| Kəngərli Rayon Gənclər və İdman İdarəsi | 1 | 7 | məsləhətçi-mühasib |
| Sədərək Rayon Gənclər və İdman İdarəsi | 1 | 7 | məsləhətçi |
| **Cəmi:** | **8** | | |
| **4. Naxçıvan Muxtar Respublikası İqtisadiyyat və Sənaye Nazirliyi** | | | |
| İqtisadi təhlil və proqnozlaşdırma şöbəsi | 1 | 6 | baş məsləhətçi |
| İqtisadi təhlil və proqnozlaşdırma şöbəsi | 1 | 6 | aparıcı məsləhətçi |
| İqtisadi təhlil və proqnozlaşdırma şöbəsi | 1 | 6 | aparıcı məsləhətçi |
| İqtisadi təhlil və proqnozlaşdırma şöbəsi | 1 | 6 | məsləhətçi |
| Sənaye şöbəsi | 2 | 6 | aparıcı məsləhətçi |
| İnvestisiya təşviqi və ixraca dəstək şöbəsi | 1 | 6 | aparıcı məsləhətçi |
| Rəqabətin qorunması və istehlakçıların hüquqlarının müdafiəsi şöbəsi | 3 | 6 | məsləhətçi |
| Rəqabətin qorunması və istehlakçıların hüquqlarının müdafiəsi şöbəsi | 4 | 6 | aparıcı məsləhətçi |
| Sahibkarlığın inkişafı şöbəsi | 1 | 6 | aparıcı məsləhətçi |
| Sahibkarlığın inkişafı şöbəsi | 1 | 6 | məsləhətçi |
| Dövlət əmlakının idarə olunması, özəlləşdirilməsi və cəmiyyətlərlə iş şöbəsi | 1 | 6 | baş məsləhətçi |
| Dövlət əmlakının idarə olunması, özəlləşdirilməsi və cəmiyyətlərlə iş şöbəsi | 3 | 6 | aparıcı məsləhətçi |
| Hüquq sektoru | 1 | 6 | baş məsləhətçi |
| Hüquq sektoru | 1 | 6 | aparıcı məsləhətçi |
| **Cəmi:** | **22** | | |
| **5. Naxçıvan Muxtar Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi** | | | |
| Mətbuat və ictimaiyyətlə əlaqələr üzrə | 1 | 6 | baş məsləhətçi |
| Hüquqşünas | 1 | 6 | məsləhətçi |
| **Cəmi:** | **2** | | |
| **6. Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi** | | | |
| Mühasibat uçotu və ümumi işlər sektoru. Mühasib | 1 | 6 | baş məsləhətçi |
| Orta ixtisas təhsili müəssisələri ilə iş üzrə sektor | 1 | 6 | aparıcı məsləhətçi |
| Orta ixtisas təhsili müəssisələri ilə iş üzrə sektor | 1 | 6 | məsləhətçi |
| Şərur Rayon Təhsil Şöbəsi | 1 | 7 | baş mühasib |
| Ordubad Rayon Təhsil Şöbəsi | 2 | 7 | aparıcı məsləhətçi |
| Ordubad Rayon Təhsil Şöbəsi. Təhsilin idarə olunmasının məlumat sistemləri üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| Ordubad Rayon Təhsil Şöbəsi | 1 | 7 | məsləhətçi |
| Şahbuz Rayon Təhsil Şöbəsi | 1 | 7 | baş mühasib |
| Şahbuz Rayon Təhsil Şöbəsi | 1 | 7 | aparıcı məsləhətçi |
| Şahbuz Rayon Təhsil Şöbəsi. Kadrlar üzrə | 1 | 7 | məsləhətçi |
| Kəngərli Rayon Təhsil Şöbəsi | 1 | 7 | aparıcı məsləhətçi |
| Sədərək Rayon Təhsil Şöbəsi | 1 | 7 | baş mühasib |
| Sədərək Rayon Təhsil Şöbəsi. Təhsilin idarə olunmasının məlumat sistemləri üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| **Cəmi:** | **14** | | |

| | | | |
|---|---|---|---|
| **7. Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi** | | | |
| Əczaçılıq və özəl tibb müəssisələr sektoru | 1 | 6 | aparıcı məsləhətçi |
| Kadrlar, elm və təhsil sektoru | 1 | 6 | aparıcı məsləhətçi |
| Kadrlar, elm və təhsil sektoru. Kadrların təkmilləşdirilməsi üzrə | 1 | 6 | aparıcı məsləhətçi |
| Tibbi yardımın təşkili şöbəsi. Ginekoloq | 1 | 6 | baş məsləhətçi |
| Tibbi statistika və informatika sektoru | 1 | 6 | aparıcı məsləhətçi |
| **Cəmi:** | **5** | | |
| **8. Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi** | | | |
| Maliyyə Nazirliyi yanında Əyar Şöbəsi. | 1 | 7 | aparıcı məsləhətçi |
| Naxçıvan Şəhər Maliyyə Şöbəsi. Büdcə proqnozu və iqtisadi təhlil sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| Şərur Rayon Maliyyə Şöbəsi. Xəzinə əməliyyatı və xəzinə əməliyyatının uçotu sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| Babək Rayon Maliyyə Şöbəsi. Büdcə proqnozu və iqtisadi təhlil sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| Şahbuz Rayon Maliyyə Şöbəsi. Büdcə proqnozu və iqtisadi təhlil sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| Culfa Rayon Maliyyə Şöbəsi. Büdcə proqnozu və iqtisadi təhlil sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| Ordubad Rayon Maliyyə Şöbəsi. Büdcə proqnozu və iqtisadi təhlil sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| Ordubad Rayon Maliyyə Şöbəsi. Xəzinə əməliyyatı və xəzinə əməliyyatının uçotu sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| Kəngərli Rayon Maliyyə Şöbəsi. Xəzinə əməliyyatı və xəzinə əməliyyatının uçotu sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| **Cəmi:** | **9** | | |
| **9. Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi** | | | |
| Naxçıvan Şəhər Mədəniyyət və Turizm Şöbəsi | 1 | 7 | baş mühasib |
| Babək Rayon Mədəniyyət və Turizm Şöbəsi | 1 | 7 | baş mühasib |
| Culfa Rayon Mədəniyyət və Turizm Şöbəsi | 1 | 7 | baş mühasib |
| Şahbuz Rayon Mədəniyyət və Turizm Şöbəsi | 1 | 7 | baş mühasib |
| Sədərək Rayon Mədəniyyət və Turizm Şöbəsi | 1 | 7 | baş mühasib |
| **Cəmi:** | **5** | | |
| **10. Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsi** | | | |
| İqtisadiyyat və maliyyə-təsərrüfat şöbəsi | 1 | 6 | baş mühasib |
| Suvarma sistemlərinin istismarı şöbəsi | 1 | 6 | aparıcı məsləhətçi |
| Su təchizatı və kanalizasiya sistemlərinin istismarı şöbəsi | 1 | 6 | aparıcı məsləhətçi |
| Su təchizatı və kanalizasiya sistemlərinin istismarı şöbəsi | 1 | 6 | məsləhətçi |
| Layihə ekspertiza şöbəsi | 1 | 6 | məsləhətçi |
| **Cəmi:** | **5** | | |
| **11. Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi** | | | |
| İctimaiyyətlə əlaqələr və informasiya təminatı üzrə | 1 | 6 | baş məsləhətçi |
| **Cəmi:** | **1** | | |
| **12. Naxçıvan Muxtar Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi** | | | |
| Hüquqşünas | 1 | 6 | aparıcı məsləhətçi |
| Yerquruluşu, torpaq, xəritəçəkmə, torpaq ehtiyatlarından istifadəyə və geodeziya xəritəçəkmə işlərinə dövlət nəzarəti şöbəsi | 1 | 6 | aparıcı məsləhətçi |
| Şərur Rayon Şöbəsi | 2 | 7 | aparıcı məsləhətçi |
| Culfa Rayon Şöbəsi | 1 | 7 | aparıcı məsləhətçi |
| Ordubad Rayon Şöbəsi | 1 | 7 | aparıcı məsləhətçi |
| Şahbuz Rayon Şöbəsi | 1 | 7 | baş məsləhətçi |
| Sədərək Rayon Şöbəsi | 1 | 7 | məsləhətçi |
| **Cəmi:** | **8** | | |
| **13. Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi** | | | |
| Hüquq sektoru | 1 | 6 | baş məsləhətçi |
| Hüquq sektoru | 1 | 6 | aparıcı məsləhətçi |
| Dövlət reyestri və kadastrı sektoru | 1 | 6 | aparıcı məsləhətçi |
| Maliyyə şöbəsi | 1 | 6 | aparıcı məsləhətçi |
| Dövlət nəzarət şöbəsi | 1 | 6 | aparıcı məsləhətçi |
| Dövlət nəzarət şöbəsi | 1 | 6 | məsləhətçi |
| **Cəmi:** | **6** | | |
| **14. Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsi** | | | |
| Demoqrafiya, əmək və sosial statistika şöbəsi | 1 | 6 | baş məsləhətçi |
| Naxçıvan Şəhər Statistika İdarəsi | 1 | 7 | məsləhətçi |
| Şərur Rayon Statistika İdarəsi | 1 | 7 | məsləhətçi |
| Babək Rayon Statistika İdarəsi | 1 | 7 | baş məsləhətçi |
| Culfa Rayon Statistika İdarəsi. Baş mühasib | 1 | 7 | baş məsləhətçi |
| Culfa Rayon Statistika İdarəsi | 1 | 7 | məsləhətçi |
| Ordubad Rayon Statistika İdarəsi | 1 | 7 | aparıcı məsləhətçi |
| Şahbuz Rayon Statistika İdarəsi | 1 | 7 | baş məsləhətçi |
| Kəngərli Rayon Statistika İdarəsi | 2 | 7 | məsləhətçi |
| Sədərək Rayon Statistika İdarəsi | 1 | 7 | baş məsləhətçi |
| Sədərək Rayon Statistika İdarəsi | 1 | 7 | aparıcı məsləhətçi |
| **Cəmi:** | **12** | | |
| **15. Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu** | | | |
| Maliyyə-uçot şöbəsi | 1 | 6 | məsləhətçi |
| Gəlirlər şöbəsi | 1 | 6 | aparıcı məsləhətçi |
| Hüquqşünas | 1 | 6 | məsləhətçi |
| Naxçıvan Şəhər Şöbəsi. Gəlirlər sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| Şərur Rayon Şöbəsi. Gəlirlər sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| Şərur Rayon Şöbəsi. Gəlirlər sektoru | 2 | 7 | məsləhətçi |
| Şərur Rayon Şöbəsi. Maliyyə-uçot sektoru | 1 | 7 | məsləhətçi-mühasib |
| Babək Rayon Şöbəsi. Gəlirlər sektoru | 1 | 7 | məsləhətçi |
| Babək Rayon Şöbəsi. Maliyyə-uçot sektoru | 1 | 7 | məsləhətçi-mühasib |
| Ordubad Rayon Şöbəsi. Gəlirlər sektoru | 1 | 7 | məsləhətçi |
| Ordubad Rayon Şöbəsi. Maliyyə-uçot sektoru | 1 | 7 | məsləhətçi-mühasib |
| Şahbuz Rayon Şöbəsi. Gəlirlər sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| Kəngərli Rayon Şöbəsi. Gəlirlər sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| Kəngərli Rayon Şöbəsi. Fərdi uçotun təşkili sektoru | 1 | 7 | məsləhətçi |
| Kəngərli Rayon Şöbəsi. Maliyyə-uçot sektoru | 1 | 7 | məsləhətçi-mühasib |
| Sədərək Rayon Şöbəsi. Gəlirlər sektoru | 1 | 7 | məsləhətçi |
| Sədərək Rayon Şöbəsi. Pensiyaların təyinatı sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| Sədərək Rayon Şöbəsi. Maliyyə-uçot sektoru | 1 | 7 | məsləhətçi-mühasib |
| **Cəmi:** | **19** | | |
| **16. Naxçıvan Muxtar Respublikası Sahibkarlığa Kömək Fondu** | | | |
| Sahibkarlığın inkişafı, investisiya layihələrinin ekspertizası və monitorinqi sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| Maliyyə sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| **Cəmi:** | **2** | | |
| **17. Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti** | | | |
| Ümumi işlər və kadr sektoru | 1 | 6 | məsləhətçi |
| **Cəmi:** | **1** | | |
| **18. Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidməti** | | | |
| Baytarlıq nəzarəti və müfəttişlik sektoru | 1 | 6 | baş məsləhətçi |
| Baytarlıq nəzarəti və müfəttişlik sektoru | 1 | 6 | aparıcı məsləhətçi |
| **Cəmi:** | **2** | | |
| **19. Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurası** | | | |
| Ekspertiza, proqramlaşdırma və lisenziya sektoru | 1 | 6 | baş məsləhətçi |
| **Cəmi:** | **1** | | |
| **20. Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi** | | | |
| Aparatda | 1 | 7 | aparıcı məsləhətçi |
| Aparatda | 1 | 7 | məsləhətçi |
| **Cəmi:** | **2** | | |
| **21. Naxçıvan Muxtar Respublikası Arxiv İdarəsi** | | | |
| Ümumi şöbə. İnformasiya axtarış və beynəlxalq əlaqələr üzrə | 1 | 6 | baş məsləhətçi |
| **Cəmi:** | **1** | | |
| **22. Naxçıvan Şəhər İcra Hakimiyyəti** | | | |
| Aparatda | 1 | 7 | baş mühasib |
| Hüquq şöbəsi | 1 | 7 | məsləhətçi |
| Şəhər təsərrüfatı, memarlıq və tikinti şöbəsi | 1 | 7 | baş məsləhətçi |
| İnformasiya təminatı və təhlili sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| 1 nömrəli sahə inzibati ərazi dairəsi üzrə | 1 | 7 | baş mühasib |
| 2 nömrəli sahə inzibati ərazi dairəsi üzrə | 1 | 7 | baş mühasib |
| 3 nömrəli sahə inzibati ərazi dairəsi üzrə | 1 | 7 | baş mühasib |
| 4 nömrəli sahə inzibati ərazi dairəsi üzrə | 1 | 7 | baş mühasib |
| **Cəmi:** | **8** | | |
| **23. Şərur Rayon İcra Hakimiyyəti** | | | |
| Aparatda | 1 | 7 | baş mühasib |
| Hüquq şöbəsi | 2 | 7 | məsləhətçi |
| İnformasiya təminatı və təhlili sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| Memarlıq və tikinti şöbəsi | 1 | 7 | böyük məsləhətçi |
| Memarlıq və tikinti şöbəsi | 1 | 7 | aparıcı məsləhətçi |
| Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsi | 1 | 7 | məsləhətçi |
| Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsi | 1 | 7 | aparıcı məsləhətçi |
| Şərur şəhər inzibati ərazi dairəsi üzrə | 1 | 7 | nümayəndə müavini |
| Məmmədsabir kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | nümayəndə müavini |
| Xanlıqlar kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | nümayəndə müavini |
| Düdəngə kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | nümayəndə müavini |
| Axaməd kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | nümayəndə müavini |
| Yuxarı Yaycı kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | baş mühasib |
| Siyaqut kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | baş mühasib |
| Çomaxtur kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | baş mühasib |
| Kosacan kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | baş mühasib |

| | | | |
|---|---|---|---|
| Dizə kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | baş mühasib |
| Alışar kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | baş mühasib |
| Cəlilkənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | baş mühasib |
| Tənənəm kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | baş mühasib |
| Zeyvə kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | baş mühasib |
| Xələc kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | baş mühasib |
| Gümüşlü kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | baş mühasib |
| Sərxanlı kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | baş mühasib |
| **Cəmi:** | **25** | | |
| **24. Babək Rayon İcra Hakimiyyəti** | | | |
| Aparatda | 1 | 7 | baş mühasib |
| Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın məsul katibi | 1 | 7 | böyük məsləhətçi |
| İctimai-siyasi və humanitar şöbə | 1 | 7 | baş məsləhətçi |
| İnformasiya təminatı və təhlili sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| Aqrar məsələlər şöbəsi. Aqronom | 1 | 7 | baş məsləhətçi |
| Hüquq şöbəsi | 1 | 7 | məsləhətçi |
| Memarlıq və tikinti şöbəsi | 1 | 7 | böyük məsləhətçi |
| Memarlıq və tikinti şöbəsi | 1 | 7 | aparıcı məsləhətçi |
| Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsi | 1 | 7 | məsləhətçi |
| Babək qəsəbə inzibati ərazi dairəsi üzrə | 1 | 7 | nümayəndə müavini |
| Hacıvar kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | nümayəndə müavini |
| Məmmədrza Dizə kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | nümayəndə müavini |
| Aşağı Buzqov kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | baş mühasib |
| Didivar kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | baş mühasib |
| Gərməçataq kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | baş mühasib |
| Şıxmahmud kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | baş mühasib |
| Qoşadizə kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | baş mühasib |
| **Cəmi:** | **17** | | |
| **25. Ordubad Rayon İcra Hakimiyyəti** | | | |
| Aparatda | 1 | 7 | baş mühasib |
| Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın uşaqlarla iş üzrə məsləhətçi-psixoloqu | 1 | 7 | aparıcı məsləhətçi |
| İctimai-siyasi və humanitar məsələlər şöbəsi | 2 | 7 | baş məsləhətçi |
| Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsi | 1 | 7 | böyük məsləhətçi |
| Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsi | 1 | 7 | aparıcı məsləhətçi |
| Aqrar məsələlər şöbəsi. Zootexnik | 1 | 7 | böyük məsləhətçi |
| Memarlıq və tikinti şöbəsi | 1 | 7 | aparıcı məsləhətçi |
| Hüquq şöbəsi | 2 | 7 | məsləhətçi |
| Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsi. Kadrlar üzrə işin aparıcısı | 1 | 7 | məsləhətçi |
| Bist kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | nümayəndə müavini |
| Şəhriyar qəsəbə inzibati ərazi dairəsi üzrə | 1 | 7 | nümayəndə müavini |
| Yuxarı Əndəmic kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | nümayəndə müavini |
| Aşağı Əndəmic kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | nümayəndə müavini |
| Azadkənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | nümayəndə müavini |
| Gilançay kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | nümayəndə müavini |
| Vənənd kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | nümayəndə müavini |
| Ordubad şəhər inzibati ərazi dairəsi üzrə | 1 | 7 | baş mühasib |
| Aşağı Əndəmic kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | baş mühasib |
| Aşağı Əylis kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | baş mühasib |
| Yuxarı Əylis kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | baş mühasib |
| Düylün kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | baş mühasib |
| Sabirkənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | baş mühasib |
| Bist kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | baş mühasib |
| Şəhriyar qəsəbə inzibati ərazi dairəsi üzrə | 1 | 7 | baş mühasib |
| Gənzə kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | baş mühasib |
| **Cəmi:** | **27** | | |
| **26. Culfa Rayon İcra Hakimiyyəti** | | | |
| İctimai-siyasi və humanitar məsələlər şöbəsi | 1 | 7 | baş məsləhətçi |
| Hüquq şöbəsi | 1 | 7 | məsləhətçi |
| Memarlıq və tikinti şöbəsi | 1 | 7 | aparıcı məsləhətçi |
| Yaycı kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | nümayəndə müavini |
| Camaldın kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | nümayəndə müavini |
| Bənəniyar kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | nümayəndə müavini |
| Göydərə kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | nümayəndə müavini |
| Göydərə kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | baş mühasib |
| Qazançı kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | baş mühasib |
| Teyvaz kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | baş mühasib |
| **Cəmi:** | **10** | | |

| | | | |
|---|---|---|---|
| **27. Şahbuz Rayon İcra Hakimiyyəti** | | | |
| Hüquq şöbəsi | 2 | 7 | məsləhətçi |
| Memarlıq və tikinti şöbəsi | 1 | 7 | aparıcı məsləhətçi |
| Aşağı Qışlaq kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | nümayəndə müavini |
| Gömür kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | nümayəndə müavini |
| Daylaqlı kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | nümayəndə müavini |
| Badamlı qəsəbə inzibati ərazi dairəsi üzrə | 1 | 7 | nümayəndə müavini |
| Şahbuzkənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | nümayəndə müavini |
| Ağbulaq kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | nümayəndə müavini |
| Gömür kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | baş mühasib |
| Qızıl Qışlaq kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | baş mühasib |
| Daylaqlı kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | baş mühasib |
| Kolanı kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | baş mühasib |
| Mahmudoba kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | baş mühasib |
| **Cəmi:** | **14** | | |
| **28. Kəngərli Rayon İcra Hakimiyyəti** | | | |
| Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın məsul katibi | 1 | 7 | böyük məsləhətçi |
| Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın uşaqlarla iş üzrə məsləhətçi-psixoloqu | 1 | 7 | aparıcı məsləhətçi |
| İctimai-siyasi və humanitar məsələlər şöbəsi | 2 | 7 | baş məsləhətçi |
| Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsi | 1 | 7 | baş məsləhətçi |
| Hüquq şöbəsi | 1 | 7 | məsləhətçi |
| Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsi | 1 | 7 | baş məsləhətçi |
| Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsi | 1 | 7 | aparıcı məsləhətçi |
| Memarlıq və tikinti şöbəsi | 1 | 7 | aparıcı məsləhətçi |
| Qabıllı kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | nümayəndə müavini |
| Qarabağlar kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | baş mühasib |
| Qabıllı kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | baş mühasib |
| Xıncab kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | baş mühasib |
| Xok kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | baş mühasib |
| **Cəmi:** | **14** | | |
| **29. Sədərək Rayon İcra Hakimiyyəti** | | | |
| Aparatda | 1 | 7 | baş mühasib |
| Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın uşaqlarla iş üzrə məsləhətçi-psixoloqu | 1 | 7 | aparıcı məsləhətçi |
| İctimai-siyasi və humanitar məsələlər şöbəsi | 3 | 7 | baş məsləhətçi |
| Hüquq şöbəsi | 2 | 7 | məsləhətçi |
| Aqrar məsələlər şöbəsi. Zootexnik | 1 | 7 | böyük məsləhətçi |
| Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsi | 1 | 7 | məsləhətçi |
| Heydərabad qəsəbə inzibati ərazi dairəsi üzrə | 1 | 7 | nümayəndə müavini |
| Qaraağac kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | nümayəndə müavini |
| Heydərabad qəsəbə inzibati ərazi dairəsi üzrə | 1 | 7 | baş mühasib |
| Qaraağac kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | baş mühasib |
| Sədərək kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | baş mühasib |
| **Cəmi:** | **14** | | |
| **30. Məhkəmə orqanları** | | | |
| Naxçıvan Muxtar Respublikası Ağır Cinayətlər Məhkəməsi | 1 | 6 | hakim köməkçisi |
| Naxçıvan Muxtar Respublikası Ağır Cinayətlər Məhkəməsi. Məhkəmə iclas katibi | 3 | 6 | məsləhətçi |
| Naxçıvan Muxtar Respublikası Hərbi Məhkəməsi. Məhkəmə iclas katibi | 1 | 6 | məsləhətçi |
| Naxçıvan Şəhər Məhkəməsi | 1 | 7 | hakim köməkçisi |
| Şərur Rayon Məhkəməsi | 1 | 7 | hakim köməkçisi |
| Babək Rayon Məhkəməsi | 2 | 7 | hakim köməkçisi |
| Babək Rayon Məhkəməsi. Məhkəmə iclas katibi | 2 | 7 | məsləhətçi |
| Şahbuz Rayon Məhkəməsi | 1 | 7 | hakim köməkçisi |
| Culfa Rayon Məhkəməsi | 1 | 7 | baş məsləhətçi |
| Culfa Rayon Məhkəməsi. Məhkəmə iclas katibi | 1 | 7 | məsləhətçi |
| Ordubad Rayon Məhkəməsi | 1 | 7 | hakim köməkçisi |
| Ordubad Rayon Məhkəməsi. Məhkəmə iclas katibi | 1 | 7 | məsləhətçi |
| Kəngərli Rayon Məhkəməsi | 1 | 7 | böyük məsləhətçi |
| Sədərək Rayon Məhkəməsi | 1 | 7 | hakim köməkçisi |
| Sədərək Rayon Məhkəməsi. Məhkəmə iclas katibi | 1 | 7 | məsləhətçi |
| **Cəmi:** | **19** | | |
| **31. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası** | | | |
| Katiblikdə | 1 | | aparıcı məsləhətçi |
| Katiblikdə | 1 | | məsləhətçi-mühasib |
| **Cəmi:** | **2** | | |
| **Yekun:** | **342** | | |

# Çəkilən hər el yolu xalqa xidmət yoludur

*(Naxçıvan şəhərində yol tikintisindən fotoreportaj)*








*Əzizim el yoludu,*
*Bu gələn el yoludu.*
*Çəkilən hər el yolu*
*Xalqa xidmət yoludu.*

*Bir neçə aydır ki, naxçıvanlı mühəndislər paytaxt şəhərimizin yollarını yenidən qururlar. Alınlarından zəhmət təri əskik olmayan yol inşaatçıları bir an belə dayanmadan, şövqlə çalışırlar. Ölkəmizin günü-gündən artan iqtisadi gücü bu əmək fədailərinin də qurmaq, yaratmaq əşqini alovlandırır.*

*Hazırda Naxçıvan şəhərinin müxtəlif ünvanlarında yol yatağı genişləndirilir, asfalt örtük salınır.*

*Çox çəkməyəcək ki, Naxçıvan şəhərinin yollarında tikinti işləri müasir tələblər səviyyəsində başa çatdırılacaqdır. İndi hər bir naxçıvanlı qəlbən sevinir ki, muxtar respublikanın quruculuq salnaməsinə belə parlaq səhifələr yazılır. Bir də ki axı yollar təkcə şəhərləri, qəsəbələri, kəndləri bir-birinə birləşdirmir... Yollar həm də insanları, xoş arzu və niyyətləri qovuşdurur...*

Yeni nəşrlər

## “Vətən təfəkkürdən başlanır” deyən şairdən...




*“Mənim fikrimcə, Vətən təfəkkürdən başlanır. Çünki hara baxırsansa, gözlərin onu görür, ürəyin onu düşünür, qəlbin onu sevir. Ona görə hər kəsi, hər kəsə görə onu sevirsən. Məncə, əsl sevgi budur – Vətən sevgisi”. Bu günlərdə çapdan çıxan “Xanəgahım, Naxçıvanım, Vətənim” adlı kitabında belə yazır bir şair.*

Doğrusunu desəm, sadəcə, dostlarımızdan eşitmişdim onun haqqında. Bildiyim o idi ki, o, Xanəgah kənd tam orta məktəbinin direktorudur. Kamal Xanəgahlı ilə (Gülmalıyev) isti bir yay günündə tələbələrimizlə birlikdə Əlincəqalaya və Xanəgah Abidə Kompleksinə səfərimiz zamanı tanış olduq. Daha doğrusu, zəng edib kəndə gəlişimizin məqsədini deyəndə və bizə bələdçilik etməsini istəyəndə məmnuniyyətlə razılaşdı və dedi ki, bütün gün ərzində kəndi və qalanı birlikdə qarış-qarış gəzdik. Xanəgah Abidə Kompleksində olarkən bizə bir kitab da hədiyyə etdi: “Ustadım Nəimidir”. Kitabla tanış olduqdan sonra əmin oldum ki, bu torpaqlar üzərində hələ də Nəiminin və Nəsiminin ruhu yaşayır, onların fəlsəfəsini yaşadan, bu yolla addımlayan insanlar var. Bu yaxınlarda isə yeni kitabının çapdan çıxdığını eşidib ondan “Xanəgahım, Naxçıvanım, Vətənim” kitabını istədim və əldə etdim. Vətənin adi torpaq olmadığını, onun insanın yaranış səbəbi, insana nə üçün yarandığını düşündürən anlayış olduğunu yazan müəllif yazır: “Şəhidliyin, alimliyin, şairliyin, ümumiyyətlə, insanlığın mahiyyəti “Onun” nə olduğunu biləndən sonra başlanır, məncə. Ona qısaca olaraq belə də deyirlər – Vətən”.

Kitabı vərəqlədikcə müəllifin Vətənimizin bir parçası olan Naxçıvanın hər daşını, hər qayasını necə sevdiyinin şahidi olursan. Yazdığı sözləri qəlbinin işığı ilə alovlandıran müəllif qələmin işığı ilə Naxçıvanın bu gününü işıqlandırmağı arzulayır və yazır:

*Söz yazıram zərrə-zərrə,*
*Söz yazıram gilə-gilə.*
*Sözüm bitmir ürəyimdə,*
*Qalayıram silə-silə.*
*Bu torpağın vurğunuyam,*
*Tariximi bilə-bilə.*
*Qoy qələmin işığında*
*İşıqlansın Nuhçıxanım.*
*Mənim əziz, mənim gözəl,*
*Mənim doğma Naxçıvanım.*

Şair müasir Naxçıvanın hüsnünə vurulan hər naxışın bu torpağın insanlarının ürəyindəki böyük eşqdən doğduğunu düşünür və yazır:

*Hər tərəfdə böyük ümid,*
*Hər ürəkdə bir arzu var.*
*Arzuları ürəklərdə*
*Zərrə-zərrə yaradarlar!*
*Əgər sevgi qorunarsa,*
*Sınmış ağac bitən olar.*

*Torpağına bağlı olsan,*
*Vətən onda Vətən olar!*

Yeni kitabı oxuduqca sətirlərin arasından müəllifin təkcə öz doğulduğu kəndə olan məhəbbətini deyil, Naxçıvanın hər bir qarışına, hər bir şəhərinə və rayonuna sevgisinin izləri görünür. Bağlar diyarı Ordubadın limonlu, dağ nanəli ətrini duyan şair bu diyarın qəhrəmanlıqlar və ənənələr yurdu olduğunu xatırladır, onu “muğam səsiylə yazılan şəhər” adlandırır:

*Sən ulu dahilər, böyük şairlər*
*Dilində hikmətli qəzəl Ordubad.*
*Ey muğam səsiylə yazılan şəhər,*
*Ordubad, Ordubad, gözəl Ordubad.*

Məmməd Araz imzalı Oğuz yurdu Şahbuz da, gözündə şimşəyin odunu daşıyaraq qəlbindən Arazı axıdan Babək də, cavan olduğu qədər qədim olan Kəngərli də, iki qardaşın görüş qapısı olan Sədərək də, damarlarından Arpaçay süzülən Şərur da şairin ilham qaynağıdır. Culfa isə şair üçün Naxçıvan yurdunun rəmzi, dahilər ruhunun izidir:

*Əlincə qalası, o Haçadağla*
*Naxçıvan yurdunun rəmizi Culfam.*
*Nəimi, Nəsimi eşqində yatan,*
*Dahilər ruhunun izidir Culfam.*

Kitabda şairin halallıq almaq istəyindən doğan “Halal eylə” şerində yuxusuna haram qatıb yurdu qoruyan əsgərdən, ulularin ruhundan, Vətəndən, dostdan halallıq istəyir şair:

*Ulu Cavid, Şeyx Nəimi,*
*Ey Əcəmi, ey Nəsimi,*
*Səndən aldım şöhrətimi,*
*Şöhrətini halal eylə.*

“Xanəgahım, Naxçıvanım, Vətənim” kitabında yer almış “Əlincə əfsanəsi” poeması qalanın müdafiəçisi olmuş Əmir Altunun və onun sevgilisi Zeynəbin dillərdə dastan olmuş eşqindən və qala uğrunda qəhrəmanlıq mübarizəsindən bəhs edir. Əlincənin həm də bu böyük sevginin izlərini yaşatdığını deyən şair onun bir daşını dünyanın daş-qaşından üstün tutduğunu yazır:

*Ulularn izi düşüb bu daşlara,*
*Tək bir daşın dəyişmərəm daş-qaşlara!*
*Dəyişmərəm Vətənimin bir kolun da,*
*Tənha izin, boz cığırın, toz yolun da!*
*Bu toz yollar məni mənə aparandır,*
*Yad əlləri tariximdən qoparandır!*

Ümumilikdə, Vətənin, ulu Naxçıvanımızın tərənnümü olan kitabın ikinci hissəsində müəllifin müxtəlif illərdə tarixi abidələrimizlə bağlı yazdığı məqalələri, bədii-fəlsəfi düşüncələri də toplanıb. Qeyd edək ki, kitab Əcəmi Nəşriyyat-Poliqrafiya Birliyində nəşr olunub.

**Elnur KƏLBİZADƏ**

*Futbol üzrə Topaz Premyer-Liqasının 5-ci turu çərçivəsində “Araz-Naxçıvan” futbol komandası doğma azarkeşləri önündə “İnter” futbol komandasını qəbul etdi.*

## Bir qədər qeyri-dəqiqlik qələbəyə imkan vermədi



Bu görüş komandamız üçün böyük əhəmiyyət kəsb edirdi. “Araz-Naxçıvan” üçün doğma azarkeşləri önündə oynamaq əlavə motivasiya yaratmışdı. Həmçinin komandamızın baş məşqçisi Əsgər Abdullayev heyətdə dəyişikliyə də əl atmışdı. Belə ki, müdafiə xətti bu dəfə Tural-Ruslan-Emin triosu ilə yanaşı, yeni oyunçu Aqil Nəbiyevə həvalə olunmuşdu. Bu kvartetin qarşısında isə Ramal Hüseynov və Elgiz Kərəmli rəqib hücumçuları dəf etmək üçün sədd qurmuşdu. Tərlan Xəlilovun yoxluğunda bu dəfə oyunqurucu funksiyasında meydana Eşqin Quliyev çıxmışdı. 10 nömrəli futbolçumuz hücum xəttində David və Bəxtiyarla yanaşı, Elmin Çobanova rəqib müdafiəsini yarmağa yardımçı olurdu.

“İnter” komandasına gəlincə, heyətində kifayət qədər təcrübəli legionerlər olan Bakı klubu cari mövsümdə yalnız “ev” oyunlarında rəqib qapısına yol tapa bilib. Belə ki, keçirilən 4 oyunda vurduğu 9 qolun hamısını “ev” oyunlarında vuran “İnter” səfərdə “Qarabağ”la heçheçə etdiyi halda, “Xəzər Lənkəran”a məğlub olmuşdu.

Naxçıvan Muxtar Respublika Stadionunda keçirilən görüşə komandamız yaxşı başladı. İlk hissədə tablodakı sıfırları dəyişməyə yaxın olsaq da, bir qədər qeyri-dəqiqlik buna imkan vermədi. Əvəzində “İnter” futbol komandası ikinci hissəyə daha yaxşı başladı. Əvvəlcə Bacana Tsxadadze hesabı açdı. Ardınca qapıçıdan qayıdan topa hamıdan tez yetişən Coşqun Diniyev hesab arasındakı fərqi artırdı – 0:2. Ruslanın mükəmməl zərbəsi ilə hesabı minimuma endirən “Araz-Naxçıvan” (1:2) son 10 dəqiqədə rəqibin cərimə meydançasında lövbər saldı. Lakin əks-hücumda “İnter” Asif Məmmədovla daha bir dəfə fərqləndi və oyunu qalib kimi başa vurdu – 1:3.

Qeyd edək ki, “Araz-Naxçıvan” futbol komandası növbəti oyununu sentyabrın 20-də səfərdə “Xəzər-Lənkəran”a qarşı keçirəcək.

## Mini-futbol turniri başa çatıb

Dünən Naxçıvan şəhərindəki İslam Hümbətov adına Uşaq-Gənclər İdman Məktəbinin mini-futbol meydançasında “Zərərli vərdişlərə “yox” deyək, həmişə sağlam olaq” devizi altında 2003-2004-cü il təvəllüdlü idmançılar arasında mini-futbol üzrə Naxçıvan şəhər birinciliyi keçirilib.

Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov turnirin keçirilmə məqsədi və qaydaları haqqında danışaraq bildirib ki, bu cür yarışların keçirilməsində məqsəd gələcəyimiz olan uşaqları zərərli vərdişlərdən uzaqlaşdırmaq və onların asudə vaxtlarını səmərəli keçirmələrinə şərait yaratmaqdan ibarətdir.

8 komanda və 80 futbolçunun iştirak etdiyi turnirin qalibi adını “Rabitəçi II” komandası qazanıb. “Nəqşicahan” komandası ikinci, “Rabitəçi I” komandası isə üçüncü olub.

Sonda yer tutan komandaların üzvlərinə Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin diplomları verilib.

**Ceyhun MƏMMƏDOV**

### İtmişdir

Yusifov Elşən Hacı oğlunun adına verilmiş Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 788